


# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

25 iyun 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 23 (3786)


# Dostluqdan strateji tərəfdaşlığa



## İki ölkənin əməkdaşlığı Xəzərin iki sahilini birləşdirir

***Prezident İlham Əliyev:*** *"Münasibətlərimiz möhkəm təməl – tarixi bağlar, mədəni əlaqələr və mənəvi əlaqələr üzərində qurulub."*

***Prezident Sərdar Berdiməhəmmədov:*** *"Türkmənistan və Azərbaycan Respublikası arasında əməkdaşlıq bütün əsas sahələr üzrə inkişaf edəcək. Bu, ölkələrimizin və xalqlarımızın uzunmüddətli maraqlarına cavab verir."*

Azərbaycan və Türkmənistan arasında münasibətlər son illərdə siyasi dialoqdan iqtisadi əməkdaşlığın yeni mərhələsinə keçib. Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun iyunun 22–23-də Azərbaycana dövlət səfəri də məhz bu tendensiyanın davamı kimi diqqət çəkdi. Səfər çərçivəsində keçirilən görüşlər, imzalanan sənədlər və Qarabağa təşkil olunan səfər göstərdi ki, Bakı ilə Aşqabad arasında əməkdaşlıq təkcə ikitərəfli əlaqələrlə məhdudlaşmır, həm də Xəzər regionunda və Avrasiya məkanında formalaşan yeni geosiyasi və nəqliyyat reallıqlarına əsaslanır.

Azərbaycan Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov əvvəlcə təkbətək, daha sonra geniş tərkibdə görüş keçirərək əməkdaşlığın əsas istiqamətlərini müzakirə ediblər. Danışıqlarda siyasi münasibətlər, iqtisadi-ticari əlaqələr, energetika, nəqliyyat-logistika sahələri, humanitar əməkdaşlıq və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Dövlət başçılarının iştirakı ilə Azərbaycan və Türkmənistan arasında bir sıra sənədlərin mübadiləsi həyata keçirilib, Prezidentlər Birgə Bəyanat imzalayıblar.

Səfərin mühüm hadisələrindən biri Azərbaycan tərəfindən Türkmənistana "Dostluq" neftdaşıyan tankerinin hədiyyə olunması idi. Bakı Gəmiqayırma Zavodunda inşa edilən tanker iki ölkə arasında dostluğun və sənaye əməkdaşlığının rəmzi kimi qiymətləndirilir.

Mətbuata bəyanatlarla çıxış edən Prezident İlham Əliyev münasibətlərin tarixi, mədəni və mənəvi bağlar üzərində qurulduğunu vurğulayıb. Dövlət başçısı Türkmənistanın Qarabağın bərpasına verdiyi dəstəyi xüsusi qeyd edib və Füzulidə inşa edilən məscid layihəsinə görə təşəkkürünü bildirib. Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov isə enerji, nəqliyyat, kimya və tekstil sənayesi sahələrində əməkdaşlığın genişləndirilməsi barədə razılıqların əldə olunduğunu bildirib.

Səfərin ikinci günü Qarabağa həsr olundu. Prezident İlham Əliyev türkmənistanlı həmkarını əvvəlcə Füzulidə qarşılayıb. Dövlət başçıları işğal dövründə dağıdılmış ərazilərlə tanış olublar, şəhərin Baş planı və həyata keçirilən yenidənqurma layihələri barədə məlumat alıblar. Türkmənistan tərəfindən inşa edilən Füzuli məscidinin tikintisi ilə bağlı təqdimat da səfərin diqqət çəkən məqamlarından olub.

Daha sonra Şuşaya gələn dövlət başçıları burada həyata keçirilən bərpa və quruculuq işləri ilə tanış olublar. Birinci yaşayış kompleksinə baxış keçirilib, Şuşa məscidində tikinti işlərinin gedişi izlənilib. Həmçinin "Heydər Əliyev və Qarabağ" sərgisinə baxılıb, Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin büstləri ziyarət edilib, Bülbülün ev-muzeyi və Cıdır düzü ilə tanışlıq baş tutub.

Bu səfər göstərdi ki, Bakı və Aşqabad arasında əməkdaşlıq qarşıdakı dövrdə həm ikitərəfli, həm də regional əməkdaşlığın mühüm sütunlarından biri olacaq.

# Gənc zabitlər Vətənin keşiyindədir

## Daxili Qoşunlar qarşıya qoyulan istənilən xidməti-döyüş tapşırığını uğurla və layiqincə yerinə yetirməyə qadirdir

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutunda 2025-2026-cı tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.

Tədbirdə respublikanın daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iştirak edib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı canlarından keçən hərbi qulluqçuların və polis əməkdaşlarının əziz xatirəsi yad edilib, Azərbaycanın Dövlət Himni səsləndirilib.

*(Ardı 2-ci səhifədə)*

# Hərəkətin təhlükəsizliyi əsas missiyadır

## Paytaxtın yol polisi fasiləsiz xidmətdədir

Bakı şəhər BPİ DYPİ-nin idman zalına baş çəkirik. Burada polis əməkdaşlarının fiziki hazırlığının artırılması üçün hər cür şərait yaradılıb. Müasir idman avadanlıqları ilə təchiz olunmuş zal, soyunub-geyinmə otaqları və duş kabinələri əməkdaşların həm dərs cədvəlinə uyğun məşğələlər keçməsinə, həm də xidmətdənkənar vaxtlarda fiziki hazırlıqlarını artırmalarına imkan verir. Ümumiyyətlə, polis əməkdaşlarının peşə hazırlıqları daim diqqət mərkəzində saxlanılır. Həftə ərzində keçirilən məşğələlər zamanı qanunvericilikdəki yeniliklər, xidməti fəaliyyətlə bağlı normativ sənədlər və digər peşə hazırlığı mövzuları öyrənilir.

*(Ardı 3-cü səhifədə)*

# Bakıda növbəti toplantı keçirilib

## Mərasimdə Prezident aktual məsələlərdən danışıb

"Bu gün artıq Qarabağda və Şərqi Zəngəzurda təxminən 90 min insan yaşayır, çalışır və təhsil alır. Müxtəlif infrastruktur və yaşayış layihələrinin həyata keçirilməsi üçün dövlət büdcəsindən 15 milyard ABŞ dollarından artıq vəsait ayrılıb".

İyunun 18-də Bakıda İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimində çıxış edən Prezident İlham Əliyev belə deyib.

Dövlətimizin başçısı bütün maliyyə mənbələrini nəzərə aldıqda azad edilmiş ərazilərə yönəldilən ümumi investisiyaların həcminin 17 milyard ABŞ dollarına yaxın olduğunu bildirib.

# Prezident orden təqdim edib

## Azərbaycan dağıstanlı qardaşlarımızın dəstəyini daim hiss edib

Prezident İlham Əliyev iyunun 19-da Rusiya Federasiyasının Dağıstan Respublikasının tanınmış ictimai-siyasi xadimi Qurban Qurbanovu qəbul edərək ona "Dostluq" ordenini təqdim edib.

Görüşdə Prezident İlham Əliyev maraqlı tarixi məqama da toxunaraq qeyd edib ki, mənim otağımda heykəl var, bu heykəl Mahaçqalada Əziz Əliyevin kabinetində olub: "Dağıstanlılar onu qoruyub saxlayıb və bu yaxınlarda mənə bağışlayıblar. Mənim nə bu otağımda, nə də digər iş kabinetlərimdə heç bir heykəl yoxdur, təkcə bu var".

Dövlət başçısı bunun həm azərbaycanlıların, həm də dağıstanlıların tarixi yaddaşında yaşayan yadigar olduğunu deyib.

# Ölkələrimiz bir-birini dəstəkləyir

## Dövlət başçısı nümayəndə heyətini qəbul edib

Prezident İlham Əliyev iyunun 21-də İordaniya Haşimilər Krallığı Nümayəndələr Palatasının sədri Mazen Torki Saud Əl-Qadinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycanla İordaniya arasında əlaqələrin dostluq və qardaşlıq üzərində qurulduğunu deyərək, ölkələrimizin hər zaman bir-birinə qarşılıqlı dəstək nümayiş etdirdiyini vurğulayıb, siyasi, iqtisadi, humanitar, parlamentlərarası əlaqələr və digər sahələrdə gələcəkdə əməkdaşlığın daha da genişlənəcəyinə əminliyini bildirib.

Qonaq da öz növbəsində Prezident İlham Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində bu gün Azərbaycanın gözəl və təhlükəsiz ölkəyə çevrildiyini deyib. Görüşdə əlaqələrimizin perspektivləri, gələcək təmaslar və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.


**Bakıda sıra baxışı keçirilib** 2



**Nəzəri biliklər təcrübə ilə güclənir** 3



**Ən sərrast komanda** 4



**Əlahiddə Çevik Polis Alayı müsabiqə elan edir** 4



# Respublika Xəbərləri

### Bu çimərliklərdən istifadə qadağandır

Bəzi çimərliklərdə dəniz suyunun keyfiyyət göstəricilərinin sanitariya norma və qaydalarına uyğun olmadığı müəyyən edilib. Türkan, Hövsan, Şıx, Sahil, Aşağı Nüvədi, Sütəmurdov, Kiçik Bazar və Niyazoba ərazilərində dəniz suyu tullantı və çirkab suları ilə çirkləndiyinə görə bu çimərliklərdən istifadə məhdudiyyəti tətbiq olunub.

### Bağçalar yeni qaydada maliyyələşəcək

Azərbaycanda məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan yeni maliyyələşmə modeli tətbiq ediləcək. Prezident İlham Əliyevin imzaladığı Fərman bu sahədə əhatəliliyin artırılması və alternativ təhsil modellərinin inkişafını nəzərdə tutur.

### Kibertəhlükəsizlik tələbləri sərtləşdirilir

Milli Məclisdə müzakirə olunan layihəyə əsasən, informasiya infrastrukturunun qorunması, kiberinsidentlər barədə məlumatların vaxtında təqdim edilməsi və aidiyyəti qurumların göstərişlərinin icrası ilə bağlı tələblərin pozulmasına görə inzibati məsuliyyət tətbiq ediləcək. Həmçinin kiberhücumların monitorinqinin aparılmaması, rəqəmsal tədqiqatlara maneələrin yaradılması və məlumatların bütövlüyünün pozulması halları da cərimələnəcək.

### Dövlət qulluqçuları təltif edildi

Azərbaycan Prezidenti İlham Əliyev dövlət qulluqçularının təltif edilməsi ilə bağlı Sərəncam imzalayıb. Sərəncama əsasən, dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə ümumilikdə 234 nəfər təltif olunub. Onlardan 32 nəfər "Tərəqqi" medalı, 202 nəfər isə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilib.

### Keçid ballarının yüksəlməsi gözlənilmir

"Bu il nəticələr təxminən keçən ilin səviyyəsindədir. Ona görə də hansısa kəskin sıçrayışın və ya ciddi enişin olacağını əvvəlcədən söyləmək düzgün deyil. Biz ümumilikdə keçən ilki səviyyəni gözləyirik. Bununla belə, müəyyən dəyişikliklər ola bilər". Dövlət İmtahan Mərkəzinin (DİM) İdarə Heyətinin sədri Məleykə Abbaszadə müsahibəsində belə deyib.

### Xocalıda baramaçılıq bərpa olunub

Xocalı rayonunda 34 ildən sonra ilk dəfə barama tədarükü həyata keçirilib. Daşbulaq kəndində salınmış intensiv tut bağları əsasında ipəkqurdu yetişdirilib və ilk məhsul əldə olunub. Həmçinin Zəngilanın Ağalı kəndində taxılçılıq təsərrüfatı üzrə ilk məhsulun yığımına hazırlıq gedir.

### Süni intellekt üzrə Bəyannamə

Ombudsmanların Beynəlxalq Bakı Sammitinin yekununda Süni intellekt və insan hüquqları üzrə Bakı Bəyannaməsi qəbul edilib. Sənəddə süni intellekt texnologiyalarının hazırlanması və tətbiqində insan hüquqlarının, insan ləyaqətinin və şəxsi məlumatların qorunmasının vacibliyi vurğulanıb. Bəyannamədə təhlükəsiz və şəffaf idarəetmə mexanizmlərinin yaradılması, alqoritmik ayrı-seçkiliyin qarşısının alınması və insan nəzarətinin təmin edilməsi tövsiyə olunur.

### Naxçıvan nümayəndəliyinin statusu dəyişir

Milli Məclis Naxçıvanda Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyinə 1-ci kateqoriya dövlət orqanı statusunun verilməsini son oxunuşda qəbul edib. Yeni qaydalara əsasən, səlahiyyətli nümayəndəlik Prezidentin müəyyən etdiyi vəzifələri yerinə yetirən icra orqanı kimi fəaliyyət göstərəcək.

### Avtomobillərin utilizasiyası artıb

Azərbaycanda bu günədək 30 minə yaxın nəqliyyat vasitəsi utilizasiya edilərək dövriyyədən çıxarılıb. Utilizasiyaya təhvil verilən avtomobillərin sayı son illərdə əhəmiyyətli dərəcədə artıb. Bu ilin ötən dövründə də minlərlə nəqliyyat vasitəsi utilizasiya proqramına cəlb olunub.

### Şükürbəyliyə növbəti köç

Böyük Qayıdış proqramı çərçivəsində Cəbrayıl rayonunun Şükürbəyli kəndinə növbəti köç həyata keçirilib. Bu mərhələdə 20 ailə olmaqla 89 nəfər doğma yurduna qayıdıb və onlara evlərinin açarları təqdim olunub.

### Şahmatçımızın parlaq qələbəsi

Azərbaycanlı qrossmeyster Aydın Süleymanlı Honkonqda keçirilən rapid və blits üzrə komandalararası dünya çempionatında dünya şahmatının liderlərindən Maqnus Karlsen üzərində qələbə qazanıb. Bununla da Azərbaycanın "Odlar Yurdu" komandası turnirin favoritlərindən hesab olunan "WR Chess" kollektivini 3,5:2,5 hesabı ilə məğlub edib.

# Gənc zabitlər Vətənin keşiyindədir

## Daxili Qoşunlar qarşıya qoyulan istənilən xidməti-döyüş tapşırığını uğurla və layiqincə yerinə yetirməyə qadirdir













*(Əvvəli 1-ci səhifədə)*

Nazir müavini - Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov Hərbi İnstitutun inkişaf yolu, maddi-texniki və tədris bazasının gücləndirilməsi istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə məruzə edib. O, məzunların buraxılış mərasiminin Hərbi İnstitutun həyatında əlamətdar hadisələrdən biri olduğunu diqqətə çatdırıb.

Nazir Vilayət Eyvazov Daxili İşlər Nazirliyinin əsas struktur qurumlarından olan Daxili Qoşunların döyüş hazırlığının yüksəldilməsinin, müasir silah və texnika ilə təminatının, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən hər zaman nəzarətdə saxlanıldığını xüsusi qeyd edib. Göstərilən ali diqqət və ardıcıl dəstək nəticəsində Daxili Qoşunlar qarşıya qoyulan istənilən xidməti-döyüş tapşırığını uğurla və layiqincə yerinə yetirməyə qadir olduğunu bildirib.

Daxili işlər naziri Qoşunların peşəkar kadr özəyinin formalaşmasında, şəxsi heyətin döyüş hazırlığında əldə etdiyi yüksək nəticələrə görə Türkiyə Silahlı Qüvvələrinin, o cümlədən Jandarm Baş Komandanlığının rolunu xüsusi vurğulayıb.

O, bu təhsil müəssisəsində kursantların dövlətə, xalqa, hərbi andə sədaqət ruhunda formalaşmasında əzmkar fəaliyyətini yüksək dəyərləndirib, Daxili Qoşunların Hərbi İnstitutunun bu gün öz təyinatına uyğun olaraq Qoşunlar üçün yüksək ixtisaslı, peşəkar zabit heyətinin hazırlanması ilə bağlı çox böyük işlər gördüyünü, bu mühüm vəzifənin gələcəkdə də layiqincə yerinə yetiriləcəyinə əminliyini ifadə edib.

Nazir V.Eyvazov gənc zabitləri, onların valideynlərini və yaxınlarını Hərbi İnstitutu uğurla bitirmələri münasibətilə təbrik edib, Daxili Qoşunlar üçün peşəkar kadrlar hazırlayan bu ali təhsil ocağının rəhbərliyinə, zabit-müəllim heyətinə təşəkkürünü bildirib.

Kursant Hüseyn Bilişov onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısına, DİN rəhbərliyinə və Hərbi İnstitutun zabit-müəllim heyətinə minnətdarlığını çatdırıb, Vətən, dövlət və xalq qarşısında vəzifələrini layiqincə yerinə yetirəcəklərini, hərbçi şərəfini hər zaman uca tutacaqlarını bildirib.

Sonra Döyüş Bayrağı üçüncü kursun kursantlarına təhvil verilib. Gənc zabit Ömər Səfərli "Yaş kötüyü"nə rəmzi xatirə lövhəsini vurub.

Tədbirin sonunda daxili işlər naziri V.Eyvazov Hərbi İnstitutu fərqlənmə və "baş leytenant" rütbəsi ilə bitirmiş məzunlara diplomları təqdim edib.

Gənc zabitlər təntənəli marşla tribunanın qarşısından keçiblər.

# Bakıda sıra baxışı keçirilib

## Daha hazırlıqlı olan 158 nəfər növbəti mərhələyə buraxılıb





Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyunun 19-da respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 158 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Gənclər qarşısında çıxış edən daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, onlara tapşırıq və tövsiyələrini verib.

# Xüsusi Təyinatlı Təlim Mərkəzində buraxılış mərasimi

## Dinləyicilər kursu uğurla başa vurublar

İyunun 20-də Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinə bilavasitə tabe olan Xüsusi Təyinatlı Təlim Mərkəzində yenidənhazırlanma kursunun buraxılış mərasimi keçirilib.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, eləcə də vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-döyüş tapşırıqlarını yerinə yetirərkən həlak olmuş daxili işlər orqanları əməkdaşlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.



Çıxış edən Xüsusi Təyinatlı Təlim Mərkəzinin rəhbər heyəti kursu uğurla başa vuran dinləyiciləri təbrik ediblər, onlara gələcək xidməti fəaliyyətlərində uğurlar arzulayıblar. İctimai asayişin qorunması, təhlükəsizliyin təmin edilməsi və cinayətkarlığa qarşı mübarizədə qazandıqları bilik və bacarıqlardan səmərəli istifadə edəcəklərinə əminliklərini bildiriblər.

Dinləyicilər adından çıxış edən polis əməkdaşları onlara göstərilən diqqət və qayğıya, yaradılmış şəraitə və peşə hazırlığının artırılması istiqamətində görülən işlərə görə Daxili İşlər Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Sonra kursu fərqlənmə ilə bitirən dinləyicilərə təltifnamələr təqdim olunub.

Mərasim dinləyicilərin təntənəli keçidi ilə başa çatıb.

# Hərəkətin təhlükəsizliyi əsas missiyadır

## Paytaxtın yol polisi fasiləsiz xidmətdədir





*(Əvvəli 1-ci səhifədə)*

Daha sonra yol hərəkətinin nəbzinin tutulduğu əməliyyat mərkəzinə daxil oluruq. Geniş monitorda paytaxtın müxtəlif küçə və prospektlərindən gələn görüntülər əks olunur. Əməkdaşların qarşısındakı kompüterlərdə izlənilən bütün məlumatlar burada cəmlənir. Bakının yollarında hərəkət edən minlərlə sürücü və piyada sanki bu monitorların qarşısından keçib gedir. Hətta müəyyən olunmayan yerdən yolu keçən piyadanı belə görmək mümkündür.

Söhbətimizi də elə piyadalardan salırıq.



### ► “Bəzi piyadaların məsuliyyətsizliyi qəzaları qaçılmaz edir”

Həmkarlarımız bildirirlər ki, paytaxtda baş verən yol-nəqliyyat hadisələrinin əhəmiyyətli hissəsi piyadaların iştirakı ilə qeydə alınır. Halbuki piyadaların üzərinə düşən vəzifələr kifayət qədər sadədir. Müəyyən olunmuş yeraltı və yerüstü keçidlərə üstünlük vermək, işıqforun tələblərinə əməl etmək təhlükəsizliyin əsas şərtləridir.

Mövzunun aktuallığını göstərmək üçün əməkdaşlar yaxın günlərdə keçirilən maarifləndirmə tədbirindən danışırlar: “Ötən gün, Xətai rayonunun Noyabr prospektində tədbirlər keçirdik. Həmin ərazidə bir-birinə yaxın iki piyada keçidi yerləşir. Bu yaxınlarda həmin yerdə ağır qəza baş vermiş və bir nəfər həyatını itirmişdi. Vətəndaşlara həmin görüntüləri nümayiş etdirdik, onlarla söhbət apardıq. Göstərdik ki, keçid yaxın olduğu halda yolun nəzərdə tutulmayan hissəsindən istifadə etmək hansı faciəli nəticələrə səbəb ola bilər”.

Əməkdaşların sözlərinə görə, piyadalar bəzən keçiddən istifadə etməmək üçün müxtəlif səbəblər göstərirlər. Ancaq nəzərə almalıdırlar ki, bir neçə dəqiqəlik vaxt qazancı heç zaman insan həyatından üstün ola bilməz. Xüsusilə sutkanın qaranlıq saatlarında təhlükə daha da artır. Statistik göstəricilər göstərir ki, piyadaların vurulması ilə nəticələnən hadisələrin böyük hissəsi məhz işıqlandırılması zəif olan ərazilərdə baş verir. Bu səbəbdən vətəndaşlara işıq qaytarıcı elementləri olan geyimlərdən istifadə etmək tövsiyə olunur. Müşahidələr də göstərir ki, yeraltı keçid olan yerdə yolun üzərindən, yerüstü keçid olan yerdə isə onun altından keçməyə çalışan piyadalara hələ də rast gəlinir. Belə davranışlar həm piyadaları, həm də sürücüləri təhlükə qarşısında qoyur.

### ► Beynəlxalq tədbirlər zəngin təcrübə qazandırır

Söhbət beynəlxalq tədbirlərin təşkili zamanı görülən işlərə gələndə məlum olur ki, yol hərəkətinin təhlükəsiz şəkildə idarə olunması bu prosesin ən vacib hissələrindən biridir. Bildirilir ki, ölkəmizdə keçirilən beynəlxalq forumlar, konfranslar və digər tədbirlər ərəfəsində hazırlıq işlərinə əvvəlcədən başlanılır. Qonaqların yerləşəcəyi hotellər, hərəkət marşrutları və tədbir məkanları müəyyənləşdirilir. Sonra isə həmin istiqamətlər üzrə monitorinqlər və sınaq hərəkətləri təşkil olunur. Qonaqların hərəkətinin təhlükəsizliyi üçün yol-patrul xidməti avtomobilləri ayrılır, marşrut boyunca müşayiət həyata keçirilir. Tədbirlərin keçirildiyi ərazilərdə əlavə təhlükəsizlik tədbirləri görülür. Ölkəmizə gələn xarici qonaqlarla ünsiyyətin rahat qurulması üçün əməkdaşlar müxtəlif dil hazırlığı proqramlarına cəlb edilirlər. Əsas diqqət ingilis dilinə yönəldilir. Çünki xarici qonaqların böyük hissəsi məhz bu dildə ünsiyyət qurur.

COP29 zamanı qazanılan təcrübə də bu sahədə mühüm rol oynayıb. Həmsöhbətlərimizin sözlərinə görə, həmin dövrdə tətbiq edilən idarəetmə mexanizmləri sonrakı kütləvi tədbirlər zamanı daha çevik və operativ qərarların qəbul edilməsinə imkan yaradıb. Formula-1 yarışlarının təşkili zamanı əldə olunan təcrübə isə paytaxtda nəqliyyatın və yol hərəkətinin səmərəli şəkildə tənzimlənməsində mühüm üstünlüklər formalaşdırıb.

### ► Vətəndaş müraciətləri diqqət mərkəzindədir

İdarədə olduğumuz müddətdə vətəndaş müraciətlərinə göstərilən diqqət də xüsusi hiss olunur. Bildirilir ki, yol polisi əməkdaşlarının əsas vəzifəsi hərəkətin təhlükəsizliyini təmin etməkdir. Bu prosesdə həm sürücülərin, həm də piyadaların hüquqlarının qorunması prioritet istiqamətlərdən hesab olunur.

Vətəndaş hər hansı qərarla və ya tərtib edilmiş protokolla razılaşmadıqda elektron sistem üzərindən və ya şəxsən müraciət edə bilər. Bütün müraciətlər araşdırılır, hüquqi qiymət verilir və nəticəsi barədə məlumat təqdim olunur.

### ► Şəffaflıq dəyişməz prinsipdir

Həmsöhbətlərimiz qeyd edirlər ki, əsas məqsədlərdən biri polis-vətəndaş münasibətlərində şəffaflığın daha da artırılmasıdır. Müasir texnologiyalar bu istiqamətdə mühüm imkanlar yaradıb. Bu gün vətəndaş inzibati xəta ilə bağlı məlumatları qısa müddətdə elektron kabineti vasitəsilə əldə edə bilir. Foto və videogörüntülərlə tanış olur, qərarın hansı əsaslarla qəbul edildiyini görə bilir. Xüsusi texniki vasitələrlə qeydə alınan qayda pozuntuları avtomatik şəkildə sənədləşdirilir. İnfrastruktur imkanları genişləndikcə insan amilindən asılılıq azalır və bütün proses daha şəffaf formada həyata keçirilir.

**İdarədən ayrılarkən bir daha əmin oluruq ki, paytaxt yollarında müşahidə olunan nizam-intizam və təhlükəsizliyin arxasında təkcə küçə və prospektlərdə xidmət aparan yol polisi əməkdaşlarının əməyi dayanmır. Monitorlar qarşısında nəqliyyat axınını izləyən, müraciətləri araşdıran, hərəkətin tənzimlənməsi və xidmətin təşkili ilə məşğul olan əməkdaşlar da bu işin ayrılmaz hissəsidir. Onlar hər gün Bakı yollarında hərəkət edən yüzminlərlə sürücü və piyadanın mənzil başına təhlükəsiz şəkildə çatması üçün əzmlə fəaliyyət göstərirlər.**

*Rəşad Mehtiyev*

# Nəzəri biliklər təcrübə ilə güclənir

## Polis Akademiyasında təcrübəli polis əməkdaşlarının dərsləri davam edir



Polis Akademiyasında kursantların peşə hazırlığının daha da təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində müxtəlif sahələr üzrə ixtisaslaşmış mütəxəssislərin iştirakı ilə mühazirələr mütəmadi olaraq təşkil edilir. Bu dərslər kursantların həm nəzəri biliklərinin dərinləşdirilməsinə, həm də praktiki təcrübə ilə zənginləşdirilməsinə imkan yaradır.

Müxtəlif fənlər üzrə təşkil olunan interaktiv dərslərdə qonaq qismində DİN-in Katibliyinin rəis müavini polis polkovniki Elvin Quliyev “Daxili işlər orqanlarında kargüzarlıq işinin təşkili və həyata keçirilməsi”, DİN-in Baş İstintaq və Təhqiqat İdarəsinin Ağır Cinayətlərin İstintaqı Şöbəsinin rəisi polis polkovniki Elnur Novruzov “İbtidai araşdırmanın ümumi şərtləri və təqsirləndirilən şəxs qismində cəlb etmə”, Baş İstintaq və Təhqiqat İdarəsinin Yol nəqliyyat hadisələrinə dair işlər üzrə istintaq və təhqiqatı şöbəsinin rəisi polis polkovniki Vüqar Əhədov və həmin şöbənin baş müstəntiqi polis mayoru Ramin Əhədov “Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydalarının əleyhinə olan cinayətləri araşdırma” mövzularında mühazirələrlə çıxış ediblər.

Dərslər zamanı mütəxəssislər tərəfindən nəzəri biliklərlə yanaşı, real təcrübədən götürülmüş nümunələr əsasında mövzular izah olunub, kursantları maraqlandıran suallar cavablandırılıb və peşə fəaliyyətində zəruri bacarıqların formalaşdırılmasına xidmət edən mühüm məqamlar diqqətə çatdırılıb.

# Narkotik tərkibli bitkilər aşkarlanıb

## Ümumi çəkisi 7 tondan artıq xaş-xaş və çətənə kolları məhv edilib



Polis əməkdaşları tərəfindən keçirilən “Xaş-xaş-2026” şərti adlı kompleks tədbirlər çərçivəsində ölkənin müxtəlif bölgələrində yabanı halda bitən narkotik tərkibli bitkilər aşkar edilərək məhv olunub.

Qax Rayon Polis Şöbəsinin əməkdaşları Qındırğa kəndi ərazisində ümumi çəkisi 1 ton 250 kiloqram olan 2563 ədəd çətənə kolu, Yardımlı Rayon Polis Şöbəsinin əməkdaşları Arvana kəndi ərazisində ümumi çəkisi 1420 kiloqram olan 6500 ədəd xaş-xaş kolu, Qəbələ Rayon Polis Şöbəsinin əməkdaşları Bayramkoxa kəndi ərazisində ümumi çəkisi 4 ton 600 kiloqram olan 9100 ədəd çətənə kolu və Masallı Rayon Polis Şöbəsinin əməkdaşları isə Dəmbəlov kəndi ərazisindəki meşə zolağında yabanı halda bitən ümumi çəkisi 349 kiloqram olan 1520 ədəd xaş-xaş kolu aşkar edərək məhv ediblər.

# Oğurluqların üstü açılıb

## Cinayət əməlləri törədən şəxslər saxlanılıblar

Qaradağ rayonunda “Toyota” və “Opel” markalı avtomobillərdən oğurluq edilməsi barədə polisə məlumat daxil olub. Polis əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən T.Sadıqov müəyyən edilərək saxlanılıb. Araşdırmalarla məlum olub ki, o, nəqliyyat vasitələrinin qapısının açıq olmasından istifadə edərək pul vəsaitləri və 2 ədəd mobil telefonu talayıb. Həmçinin Nərimanov rayonu ərazisində yerləşən restoranların birindən pul və qızıl-zinət əşyaları oğurlanıb. Polis əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən 31 yaşlı R.Quliyeva müəyyən edilərək saxlanılıb. Araşdırmalarla onun bundan öncə Nəsimi rayonu ərazisindəki evlərin birindən 2 ədəd qol saatı oğurlaması da məlum olub.

Faktlarla bağlı araşdırmalar davam etdirilir.

# Virtual dünyanın real təhlükələri

## Rəqəmsal vərdişlər insan həyatını necə dəyişir?

**Bir neçə il əvvəl mobil telefonlar əsasən ünsiyyət vasitəsi hesab olunurdusa, bu gün onlar insanların gündəlik həyatının ayrılmaz hissəsinə çevrilib. İş, təhsil, əyləncə, alış-veriş, bank əməliyyatları və sosial münasibətlərin böyük hissəsi artıq ağıllı telefonlar vasitəsilə həyata keçirilir. Lakin texnologiyanın həyatımızı asanlaşdırması ilə yanaşı, onun yaratdığı görünməyən risklər də getdikcə daha çox diqqət çəkir.**




Smartfonlardan həddindən artıq istifadə yalnız fiziki və psixoloji problemlərlə məhdudlaşmır. Bu vərdiş insanların davranışlarına təsir edir, diqqəti zəiflədir və riskli qərarların qəbul edilməsinə səbəb olur. Xüsusilə yeniyetmələr və gənclər arasında telefon asılılığının artması cəmiyyət üçün ciddi narahatlıq doğuran məsələlərdən birinə çevrilib.

### ► Asılılıq necə formalaşır?

Telefonlardan istifadə adətən məlumat almaq, xəbərləri izləmək və ya ünsiyyət qurmaq məqsədilə başlayır. Lakin sosial şəbəkələrdəki paylaşımlar, bildirişlər və daim yenilənən məzmun istifadəçidə telefonu tez-tez yoxlamaq ehtiyacı yaradır. Zaman keçdikcə bu vərdiş gündəlik fəaliyyətlərə, iş məhsuldarlığına və şəxsi münasibətlərə mənfi təsir göstərir.

### ► Diqqətin dağılması və təhlükəli nəticələr

Telefon asılılığının yaratdığı ən ciddi problemlərdən biri diqqətin dağılmasıdır. Yol hərəkəti iştirakçıları arasında telefon istifadəsi səbəbindən baş verən hadisələr hər il minlərlə insanın həyatını təhlükəyə atır. Piyadaların yolu keçərkən telefona baxması, sürücülərin sükan arxasında mesaj yazması və ya sosial şəbəkələrdən istifadə etməsi faciəvi nəticələrə gətirib çıxara bilər. Bəzən cəmi bir neçə saniyəlik diqqətsizlik geri dönüşü olmayan hadisələrlə nəticələnir.

### ► Riskli paylaşımlar

Sosial şəbəkələrdə tanınmaq və daha çox izləyici toplamaq istəyi də yeni təhlükələr yaradır. Xüsusilə yeniyetmələr bəyənmə və baxış sayı qazanmaq üçün təhlükəli hərəkətlərə əl atırlar. Hündür binaların damında çəkilən videolar və müxtəlif internet çağırışları ağır xəsarətlərə, hətta ölüm hallarına səbəb ola bilir. Virtual aləmdə məşhur olmaq arzusu bəzən real təhlükəni kölgədə qoyur.

### ► Kiberdələduzlar üçün əlverişli mühit

Telefonlardan davamlı istifadə insanları kiberdələduzluq risklərinə qarşı daha da həssas edir. İstifadəçilər gələn mesajları və keçidləri düşünmədən açır, mənbəyi məlum olmayan tətbiqləri yükləyirlər. Dələduzlar isə bundan istifadə edərək saxta lotereyalar, endirim kampaniyaları, bank bildirişləri və müxtəlif hədiyyə vədləri ilə insanların şəxsi məlumatlarını və maliyyə vəsaitlərini ələ keçirməyə çalışırlar. Əksər hallarda zərərçəkənlər sadəcə diqqətsizlik səbəbindən kibercinayətkarların tələsinə düşür.

### ► Sosial təcrid

Telefon asılılığı insan münasibətlərinə də mənfi təsir göstərir. Eyni evdə yaşayan ailə üzvləri və dostlar canlı ünsiyyət qurmaq əvəzinə vaxtlarının böyük hissəsini telefon ekranı qarşısında keçirirlər. Uzunmüddətli istifadə yuxu pozuntularına, əsəbiliyə, diqqət çatışmazlığına və gündəlik həyat ritminin pozulmasına səbəb olur. Uşaqlar və yeniyetmələr arasında isə bu problem təhsil göstəricilərinin zəifləməsinə, sosial bacarıqların inkişafının ləngiməsinə və real həyatdan uzaqlaşmaya gətirib çıxara bilər.

### ► Riskləri necə azaltmaq olar?

Mütəxəssislər gün ərzində telefondan istifadə müddətinin nəzarətdə saxlanılmasını, sosial şəbəkələrə ayrılan vaxtın məhdudlaşdırılmasını və ailə daxilində canlı ünsiyyətin artırılmasını tövsiyə edirlər.

Bundan əlavə, yol hərəkəti zamanı telefondan istifadə etməmək, şübhəli keçid və mesajlara qarşı diqqətli olmaq, şəxsi məlumatların qorunmasına riayət etmək və uşaqların internet fəaliyyətinə nəzarət etmək mövcud risklərin azaldılmasında mühüm rol oynayır.

Texnologiya müasir həyatın ayrılmaz hissəsidir. Ancaq insan texnologiyanı idarə etməli, texnologiya insanın həyatına hakim olmamalıdır. Əks halda kiçik bir cihaz zamanla həm təhlükəli vərdişlərin, həm də ciddi risklərin mənbəyinə çevrilə bilər.

*Aytən Tahirova*

# Əlahiddə Çevik Polis Alayı müsabiqə elan edir

## Müsabiqədə müəyyən edilmiş şərtlərə cavab verən kişi cinsli vətəndaşlar iştirak edə bilərlər



Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Əlahiddə Çevik Polis Alayında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir. Müsabiqədə ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 25-dək, boyu 180 santimetrdən hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən kişi cinsli vətəndaşlar iştirak edə bilərlər.

Ünvan : Bakı ş. Xətai rayonu 8 Noyabr prospekti 69.

Əlavə məlumat almaq üçün əlaqə telefonları:

(012) 590 64 68, (012) 590-80-66; (012) 590-94-12;
(012) 590-98-37;
(012) 590-93-64; (012) 590-97-52.

# Ən sərrast komanda

## Əlahiddə Çevik Polis Alayı güllə atıcılığı üzrə Bakı çempionu olub








Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş Daxili İşlər Nazirliyinin aparatı və Bakı şəhər polis orqanları arasında xidməti silahdan güllə atıcılığı üzrə zona yarışı keçirilib.

Yarışda DİN-in Daxili Qoşunları, Baş Mühafizə İdarəsi, Nəqliyyatda Baş Polis İdarəsi, Baş Dövlət Yol Polisi İdarəsi, Polis Akademiyası, Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəb, Əlahiddə Çevik Polis Alayı, Diplomatik Nümayəndəliklərin Mühafizəsi üzrə Əlahiddə Polis Taboru və Bakı şəhər Baş Polis İdarəsinin komandaları bacarıqlarını nümayiş etdiriblər.

Gərgin mübarizə şəraitində keçən turnirdə əməkdaşlar hədəflərə "Kalaşnikov" avtomatı, "Makarov" və "Zəfər" tapançalarından atəş açıblar.

Yarışın nəticəsinə əsasən, Əlahiddə Çevik Polis Alayının komandası rəqiblərini qabaqlayaraq birinci yerə layiq görülüb. İkinci yerdə Polis Akademiyası, üçüncü yerdə isə Daxili Qoşunların komandaları qərarlaşıb. Qalib komandalar diplom və mükafatlarla təltif olunublar.

Qeyd edək ki, Bakı çempionatında qadın əməkdaşlar da yüksək nəticələri ilə diqqət çəkiblər. Belə ki, müxtəlif tapşırıqlar üzrə ƏÇPA-nın əməkdaşı Nigar İsmayılova, Polis Akademiyasının əməkdaşı Sevinc Əliyeva və Bakı şəhər Baş Polis İdarəsinin əməkdaşı Gülər Əliyeva birinci yerlərə layiq görülüblər.

*Ləman Babayeva*

# Tarixdə ilk detektivlər kimlər olub?

## Həqiqəti izlərdən oxumaq sənətinin maraqlı tarixi var






Bu gün detektiv deyəndə cinayət yerində iz axtaran, sübutları təhlil edən və ən kiçik detallardan böyük nəticələr çıxaran peşəkar istintaqçı təsəvvür olunur. Lakin detektiv düşüncə bir gündə formalaşmayıb. Həqiqəti görünməyən izlərdən tapmaq bacarığı minilliklər boyu inkişaf edərək müasir kriminalistikanın əsasını yaradıb.

### *Qədim Çin – hadisəni yenidən qurmaq sənəti*

Tarixçilərin fikrincə, istintaq düşüncəsinə ən yaxın sistemlərdən biri qədim Çində formalaşıb. Həmin dövrdə hakimlər yalnız hökm çıxarmaqla kifayətlənmir, hadisənin necə baş verdiyini mümkün qədər dəqiq müəyyənləşdirməyə çalışırdılar. Şahidlərin ifadələri müqayisə edilir, ziddiyyətlər araşdırılır, hadisələrin ardıcıllığı bərpa olunurdu. Bəzən eyni hadisə müxtəlif versiyalar üzrə təhlil edilir, yalnız bütün detallar uyğunlaşdıqdan sonra qərar qəbul olunurdu. Bu yanaşma müasir kriminalistikada istifadə edilən hadisənin rekonstruksiyası metoduna olduqca yaxın hesab edilir.

### *Orta əsr müsəlman dünyası – analitik düşüncənin yüksəlişi*

Orta əsrlərdə Yaxın Şərqdə elmi düşüncə sürətlə inkişaf edirdi. Riyaziyyat, astronomiya və təbabətlə yanaşı, məlumatların təhlili sahəsində də mühüm işlər görülürdü. Əl-Kindi kimi alimlər şifrələrin açılması və məlumatların analizi üzərində çalışaraq gizli məlumatların üzə çıxarılması üçün yeni metodlar hazırlamışdı. Onun istifadə etdiyi üsullar sonralar kriptoanalizin əsasını təşkil etdi.

Digər görkəmli alim Əl-Biruni isə müşahidə, müqayisə və faktların sistemli təhlilinə əsaslanan yanaşması ilə seçilirdi. O, müxtəlif mənbələrdən əldə olunan məlumatları tutuşduraraq nəticəyə gəlirdi. Bu metod müasir istintaq prosesində sübutların müqayisəli təhlili prinsipi ilə oxşarlıq təşkil edir.

### *Ən böyük silah - müşahidə qabiliyyəti*

Tarixi mənbələr göstərir ki, ilk detektiv düşüncənin əsas vasitəsi texnologiya deyil, diqqətli müşahidə olub. İnsanlar çox erkən dövrlərdən anlayıblar ki, heç bir hadisə izsiz baş vermir. Ayaq izləri, qırılmış əşyalar, torpaq izləri, davranışlardakı dəyişikliklər və ya şahid ifadələrindəki kiçik uyğunsuzluqlar həqiqətə aparan yolun başlanğıcı hesab edilirdi. Sonrakı əsrlərdə məhz bu müşahidə mədəniyyəti elmi kriminalistikanın əsas sütunlarından birinə çevrildi.

XIX əsrdə detektivlik artıq ədəbiyyatda ayrıca janr kimi formalaşmağa başladı. Amerikalı yazıçı Edgar Allan Po "Morq küçəsində qətl" əsərində Oqüst Düpen obrazını yaradaraq analitik detektiv modelinin əsasını qoydu.

### *Ədəbiyyatın yaratdığı məşhur detektiv modeli*

Düpen hadisələri emosiyalarla deyil, məntiq və müşahidə ilə təhlil edir, ən xırda detallardan nəticə çıxarırdı. O, görünən faktlarla kifayətlənmədən hadisəni zehində yenidən qurmağa çalışırdı. Sonralar bu yanaşma detektiv ədəbiyyatının klassik modelinə çevrildi və Şerlok Holms kimi məşhur obrazların yaranmasına təsir göstərdi.

### *Minilliklərin formalaşdırdığı peşə*

Tarix göstərir ki, detektivlik tək bir şəxsin və ya dövrün yaratdığı sahə deyil. Qədim Çin məhkəmə məmurlarının məntiqi araşdırmaları, orta əsr alimlərinin analitik yanaşmaları və ədəbiyyatın yaratdığı məşhur obrazlar birləşərək müasir kriminal düşüncənin əsasını formalaşdırıb.

Bu gün kriminalistika laboratoriyalar, ekspertizalar və müasir texnologiyalarla daha da gücləndə də, onun əsas prinsipi dəyişməyib. Həqiqət hələ də detallarda gizlənir və detektivliyin minilliklərdən gələn ən vacib qaydası bu gün də qüvvədə qalır: kiçik izlər böyük həqiqətləri üzə çıxarır.

*Aytən Tahirova*

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR:
ANAR QAFAROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik